BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2006

# DEMOKRATİK REJİMİN XÜSUSİYYƏTLƏRİ

M.R.QULİYEV

*Təqdim olunmuş məqalədə ən əvvəl hüquq ədəbiyyatında demokratik rejimlə bağlı geniş yayılmış dörd əsas konsepsiyanın (plüralizm, demokratik elitizm, neoelitizm və sol radikal konsepsiya) müddəaları təhlil olunur. Bundan başqa, sübut edilir ki, demokratik rejimin ən mühüm cəhətlərindən biri azad və müntəzəm seçkilərdir. Bundan əlavə, qeyd olunur ki, demokratizmin ən mühüm göstəricilərindən biri də cəmiyyətdə yüksək siyasi mədəniyyətin formalaşmasıdır.*

Hazırki dövrdə "demokratiya" qədər tez-tez işlənən ikinci bir terminə rast gəlmək çətindir. Kobud desək, demokratiya "prestijli anlayışa çevrilmişdir". Bununla belə, geniş yayılmasına baxmayaraq demokratiya, demokratik rejim anlayışının özü heç də aydın ifadə olunması ilə seçilmir. Demokratiyanın idarəçilik, dövlətin təşkili forması və siyasi rejimin bir forması kimi ənənəvi izahı ilə yanaşı, alim və siyasətçilər onun klassik və yeni təriflərinin saysız-hesabsız variantlarını təklif edirlər (1).

Bəs demokratiya nə deməkdir? Demokratiyanın daha ümumi və "ensiklopedik" təriflərini sadalayaq. "Fəlsəfi ensiklopediyada" "demokratiya" termininin aşağıdakı hallarda istifadə edildiyi göstərilir:

1. xalq hakimiyyətini ifadə etmək üçün;
2. bir sıra hüquqi əlamətləri ilə seçilən dövlətin xarakteristikası üçün;
3. insan hüquq və azadlıqlarının sinonimi kimi (2).

Demokratiya "xalqın hakimiyyətin mənbəyi kimi tanınmasına, onun dövlət işlərinin həllində iştirak etmək hüququna və vətəndaşlara kifayət qədər geniş hüquq və azadlıqların verilməsinə əsaslanan cəmiyyətin siyasi təşkili formasıdır" kimi tərifi siyasi məzmun nöqteyi-nəzərindən daha geniş və daha konkret görünür (3).

Demokratiya - yalnız çoxluğun siyasi hakimiyyəti deyil, həm də azlığın fikirlərinə hörmət və onların nəzərə alınmasıdır. Belə hesab etmək olar ki, demokratiyanın daha tutarlı tərifini Amerikanın məşhur siyasi xadimi Avraam Linkoln vermişdir: "...xalqın xalq tərəfindən və xalq üçün idarə olunması" (4). Bununla belə, qeyd etmək lazımdır ki, siyasi təlimlər tarixində demokratiyanın tərifi ilə bağlı fikir müxtəlifliyi mövcuddur və hər bir mütəfəkkir bu anlayışa öz izahını daxil edir.

Elmi ədəbiyyatda demokratik rejimin izahında iki ümumi ya-

naşma mövcuddur: plüralist və elitar. Birinci yanaşmanın tərəfdarları demokratiyaya müxtəlif sosial qruplara, "qərar qəbul etmək" üçün qanuni imkan yaratmaqla, toqquşan maraqlar arasındakı qarşılıqlı münasibətləri tənzimləyən siyasi mexanizm kimi baxırlar. İkinciyə görə - demokratiyaya siyasi elitanın seçilməsi və fəaliyyətinin demokratik prinsiplərini təmin edən siyasi proses kimi baxılır.

Yuxarıda göstərilən yanaşmalardan çıxış edərək, demokratik rejimin dörd əsas кonsepsiyası müəyyən edilmişdir:

1. plüralizm;
2. demokratik elitizm;
3. neoelitizm;
4. sol radikal konsepsiya.

Plüralistlər siyasi sistemdə hakimiyyətin "maraqlı tərəflər" arasında "dispersiyası" tezisini müdafiə edir və qanunverici, icra və məhkəmə orqanlarına xüsusi funksiyalara malik olan ayrıca qruplar kimi baxılır.

"Demokratik elitizm" konsepsiyasında siyasi hakimiyyətin demokratik rejim şəraitində elitar xarakteri qəbul edilir və demokratiya prinsiplərinin müxtəlif sosial qrupların dəstəyinə və müxalif qruplar üçün hakimiyyətin davranışına qarşı çıxmaq imkanına nail olmağa çalışan elitaların açıq rəqabəti nəticəsində təmin olunduğu iddia edilir.

Demokratiyanın neoelitist izahı "hakim elitanın" cəmiyyətin geniş kütlələrinə nisbətən daha məntiqli, rasional və aktiv olduğunu bildirən tezisə əsaslanır. Bu nəzəriyyəyə görə elitalar kütlələrdən yalnız sosial-iqtisadi xüsusiyyətlərinə görə deyil, məqsəd və dəyərlərinə görə də fərqlənir. Məhz elitalar demokratik siyasi sistemin əsasında duran prinsip və etiqadların saxlanılmasını daha çox təmin edir.

"Neoelitizmdən" fərqli olaraq, sol radikal konsepsiyanın nümayəndələri sosial-siyasi iyerarxiyanın yüksək təbəqələrinin rolunu qətiyyətlə inkar edir. Burada iqtisadi, sosial və siyasi həyatın vacib sahələrinin "hakim sinif" tərəfindən ələ keçirilməsi demokratiyanın tənəzzülünün əsas səbəbi kimi qəbul edilir.

Belə hesab edilir ki, demokratik rejimin mahiyyət və formasının təyin olunması üçün onun ümumi cəhətlərinin müəyyən edilməsi metodoloji cəhətdən əsaslandırılmış olardı. Lakin qeyd etmək lazımdır ki, demokratiyanın son dərəcə ümumi cəhət və institutlarını müəyyən etmək cəhdi olduqda maraqsız abstraksiyalara gətirib çıxara bilər, lakin, onlardan başlamadan daha məzmunlu və daha konkret anlayışlara keçmək mümkün deyil.

Beləliklə, demokratik rejimin ən mühüm cəhətlərindən biri azad və müntəzəm seçkilərdir. "Demokratiya hakimiyyəti onun səlahiyyət və vəzifələrinin yalnız idarə olunanların razılığı ilə təmin edilməsi halında qanuni hesab edən prinsipə əsaslanır... O, yalnız xalqın öz razılığını verdiyi səlahiyyət və funksiyaları həyata keçirmək hüququna malikdir. Xalq isə bunu birdəfəlik vermir, çünki razılığın verilməsi arasıkəsilməz prosesdir. Bundan əlavə,

razılıq fəal təqdiretmə kimi nəzərdə tutulur. Hökumətin bu əsasda fəaliyyət göstərməsi üçün müəyyən institutlar mövcuddur" (5). Daha dəqiq, ən azı aşağıdakı üç şərti nəzərdə tutan azad və müntəzəm seçkilər:

1) partiyaların yaranması və fəaliyyətinin nəticəsi olaraq gələcəkdə seçiləcək şəxslərin namizədliyinin azad şəkildə irəli sürülməsi;

2) sərbəst seçki hüququ, yəni "bir adam – bir səs" prinsipinə əsaslanan ümumi və bərabər seçki hüququ;

3) gizli səsvermə kimi başa düşülən azad səsvermə və hamının bərabər şəkildə məlumat almaq və seçki kampaniyası zamanı bu və ya digər namizədin xeyrinə təbliğat və təşviqat aparmaq imkanı.

Demokratik rejimə öz legitimliyini xalqdan seçki yolu ilə alan rejim kimi tərif verilə bilər. "Müasir aparıcı demokratiyalar" əsərində F.Lovo qeyd edir кi, demokratiya rəhbərlərin təyin olunan rəqabət əsasında müntəzəm keçirilən seçkilər nəticəsində dinc üsulla məhdud müddətə institusion rejimdir (6).

Demokratik rejimdə fəaliyyət göstərən dövlət sistemi hakimiyyətin bölünməsi nəzəriyyəsi əsasında qurulur. Bu nəzəriyyəyə əsasən dövlət hakimiyyəti dedikdə, dövlət orqanları tərəfindən bir-birindən asılı olmadan həyata keçirilən hakimiyyət funksiyalarının məcmusu başa düşülür. Bu nəzəriyyə konkret səlahiyyətlərə malik və onlara əsasən ayrılan bu orqanların bir-birini bir növ tənzimləyəcəyini, qarşısını alacağını və onlardan hər hansı birinin dövlətdə hakimiyyəti qəsb edə bilməyəcəyini güman edir. Məhkəmə hakimiyyətinin müstəqilliyindən əlavə, bu konsepsiya uzun müddət qanunverici və icraedici hakimiyyətin müstəqilliyinə əsaslanmışdır.

Hakimiyyətin bölünməsi, əks qüvvələr və tənzimləmə sisteminə dair müasir fikirlər məhdud klassik sxemdən daha genişdir. Bu, partiya sistemlərinin yaranmasının vəziyyəti dəyişməsi ilə bağlıdır. Bu halda bir partiyanın parlament çoxluğunu və hakimiyyəti eyni vaxtda idarə edir və hakimiyyətin bölünməsi prinsipi simvola çevrilir. Belə bir hal, məsələn, parlament seçkilərində səs çoxluğu qazanmış partiyanın sonradan hakimiyyəti formalaşdırdığı parlament respublikalarında baş verə bilər. Bu halda, parlament çoxluğu fraksiyası ilə hökumət bir-biri ilə sıx bağlı olduğundan, qanunverici və icraedici orqanlar arasında hakimiyyət bölgüsü mövcud olmur. Qanunverici və icraedici strukturların bir qanunverici-icraedici və ya "partiya" hakimiyyətində "birləşməsi" baş verir. Belə dövlətdə qanunverici və icraedici hakimiyyətin maraqları arasında fərq olmayan "partiya hakimiyyəti" (7) meydana çıxır. Demokratiyanın vacib şərti isə hər hansı siyasi orqanın hakimiyyət üzərində monopoliyasının olmamasıdır.

Hakimiyyətin bölüşdürülməsi bir növ eyni vaxtda üç əsas ölçüdən: üfüqi, şaquli və partiyadan meydana çıxır. Üfüqi struktur dövlət-hakimiyyət səlahiyyətlərini qanunverici, icraedici və məhkəmə fəaliyyəti sahələri arasında bölüşdürür. Şaquli struktur ali mərkəzi dövlət orqanları, federasiya subyektləri orqanları və yerli hakimiyyət orqanlarının səlahiyyət və qarşılıqlı əlaqələrini müəy-

yən edir. Partiyalararası əks qüvvələr və tənzimləmələr sistemi isə hakim partiya ilə müxalifət arasındakı qüvvələr nisbətini ifadə edir.

Siyasi plüralizm şəraitində heç bir qrup və ya təşkilat hakimiyyət üzərində monopoliyaya malik olmaq hüququna malik deyil və buna iddia etmir. Q.Kelzenə görə "ümumi rifah və ümumi maraqların nədən ibarət olması məlum olmadığından, qərarların qəbul olunması zamanı praktiki olaraq bütün mülahizələrin əhəmiyyəti eynidir. Bu halda əhəmiyyətli olan yeganə qayda – çoxluğun qaydasıdır. Lakin çoxluğun özünün də ümumi rifah haqqında dürüst mülahizəsi olmadığından bir çoxluğun digər çoxluqla əvəz olunması imkanını nəzərdə tutmaq vacibdir. Buradan ümumi rifahla bağlı qərarlar çıxaran instansiya və şəxslərin vaxtaşırı əvəzlənməsini əsaslandırmaq imkanı yaranır" (8).

Ədəbiyyatda "siyasi müxalifət" anlayışının müxtəlif tərifləri mövcuddur. Belə ki, V.P.Makarenko bu hadisəyə siyasi institutlar prizmasından baxaraq ona "mütəşəkkil şəkildə fəaliyyət göstərən (açıq və ya gizli) və hakimiyyəti hakim partiyanın əlindən almağa və digər siyasi qüvvəyə verməyə çalışan ictimai hərəkat və partiyalar" kimi tərif verir (9). Digər mövqenin tərəfdarları müxalifətə "əks təsir, müqavimət və öz baxış və siyasətlərinin hər hansı digər baxış və siyasətə qarşı qoyulması" kimi baxırlar (10).

Həm bu, həm də digər fikrin tədqiq olunan hadisənin bütün xüsusiyyətlərini əhatə etmədiyi iddia edilir. Birinci, sözsüz olaraq, siyasi müxalifətin fəaliyyət dairəsini məhdudlaşdırır, onun partiyadaxili müxalifət növünün mövcudluğunu izah etmir. İkinci isə - müxalifətin fəaliyyətinin obyektlərini göstərmir.

Səthiliyə yol verməmək məqsədilə siyasi müxalifət analyışının aşağıdakı əsas mənalarda izahı ilə razılaşmaq lazımdır:

1) siyasətdə çoxluğun fikrinə qarşı çıxmaq və öz siyasətinin rəsmi kursa qarşı qoyulması kimi;

2) çoxluğun fikirlərinə, qanunverici, partiya və ya digər strukturlarda hökm sürən fikirlərə qarşı çıxış edən şəxslər və ya partiyalar qrupu kimi (11).

Beləliklə, müxalifətə həm hakimiyyətə qarşı müəyyən tənqidi münasibət, həm də siyasi institut kimi baxmaq olar. Birinci halda müxalifət siyasi sferada özünü ifadə etməyi tələb edən və istiqamətləndirilən özünəməxsus maddi və mənəvi maraqlara malik çoxlu müxtəlif sosial qruplardan ibarət olan insan cəmiyyətinin özü ilə şərtləndirilir. Məhz özünəməxsus sosial maraqların uyğun gəlməməsi və çox vaxt toqquşması siyasi plüralizm üçün əsas rolunu oynayır. İdeal mənada cəmiyyətin bütün əsas qrup və təşkilatları üçün konsensus mümkündür və bu halda müxalifət üçün əsas mövcud olmur. Lakin praktik olaraq bütün məsələlər üzrə razılıq mümkün olmur, çünki siyasi ifadə və müdafiə axtaran müxtəlif maraqlar toqquşur.

Hökumətin fəaliyyətinə qarşı loyallıq dərəcəsindən asılı olaraq müxalifəti iki növə ayırmaq olar: loyal və barışmaz (radikal). Birinci halda rəqabət aparan sosial və siyasi qüvvələr arasında

ictimai sistemin təbiəti, onun təşkili və fəaliyyətinin əsas prinsipləri, əsas dəyərlər, ideallar və ictimai inkişafın məqsədləri ilə bağlı razılıq mövcud olsa da, konkret siyasətin, bu və ya digər ümumdövlət probleminin həlli variantının seçilməsində razılıq olmur. Bu halda həm bu anda hakimiyyətdə olan partiya, həm də müxalifət eyni sistem üzərində durur və onun prinsiplərinə şübhə yoxdur.

İnkişaf etmiş Qərb ölkələrində hakimiyyətə real olaraq iddialı olan əsas partiyalardan heç biri tərkibində fəaliyyət göstərdikləri ictimai sistemin mahiyyət və prinsiplərini şübhə altına almır. Mübarizə kimin cəmiyyətin maraqlarını daha yaxşı ifadə etməsi və reallaşdırması, kimin bu və ya digər sosial qrupun özünəməxsus maraqlarını irəli çəkməyi bacarması uğrunda, ümummilli maraqların həyata keçirilməsi metodları ilə bağlı gedir. İkinci növdə müxalifət ictimai sistemin əsas təməllərinə qarşı, onun dağıdılması və məhv edilməsi uğrunda çıxış edir. Bu gün Azərbaycanda olduğu kimi, əsas kütlə mövcud siyasi rejimin rasionallığına və ədalətliliyinə əmin olduqda, radikal müxalifətin uğur qazanmaq üçün heç bir şansı yoxdur.

Əhatə etdiyi mühitdən asılı olaraq partiyadaxili və parlament müxalifətini ayırmaq olar. Partiyadaxili müxalifət dedikdə, müəyyən partiyanın və onun rəhbər orqanlarının siyasətinə dair hər hansı prinsipial məsələlərə qarşı çıxış edən qruplaşmalar nəzərdə tutulur. Parlament müxalifəti – bu hökumətin siyasətinə qarşı çıxan parlament deputatlarının bir qrupu və ya hər hansı partiyanın parlament fraksiyasıdır. İstifadə edilən fəaliyyət metodlarına görə leqal və qeyri-leqal müxalifəti fərqləndirmək olar. Leqal cəmiyyətdə qəbul edilmiş qanunlar çərçivəsində konstitusion qaydada fəaliyyət göstərir. Qeyri-leqal qanundan kənar fəaliyyət göstərir, siyasi mübarizədə antikonstitusion metodlardan istifadə edir (12).

Bir çox hallarda, səhvən siyasi plüralizmlə çoxpartiyalılıq eyniləşdirilir. Çoxpartiyalılıq, siyasi partiyalar hüquqi üstünlüyə malik olmadıqda və bu mənada xalqın dəstəyini qazanmaq uğrunda mübarizədə eyni vəziyyətdə olduqda, siyasi həyatda plüralizmin ifadə forması ola bilər. Əgər hər hansı səbəbdən siyasi partiyalarda birləşməyən ictimai birliklərə seçicilərin səslərini qazanmaq və nəticədə hakimiyyətin həyata keçirilməsi uğrunda mövcud olan vahid partiya ilə rəqabət aparmaq üçün bərabər hüquq və imkanlar verilərsə, siyasi plüralizmi birpartiyalı şəraitdə də təsəvvür etmək mümkündür. Lakin bir çox ölkələrin təcrübəsi göstərir ki, sosial qrupların maraqlarını daha dolğun ifadə edən siyasi partiyalardır.

Müasir dünyada demokratik rejim şəraitində cəmiyyət siyasi partiyalar olmadan fəaliyyət göstərə bilməz. Bu onunla izah olunur ki, partiya – dövlət hakimiyyətinin əldə edilməsi, saxlanılması və ya istifadə edilməsi vəzifəsi ətrafında birləşmiş, müəyyən sosial qrupun, xalqın, dini icmanın və ya digər birliyin maraqlarını ifadə edən, siyasi arenada sivil davranış çərçivəsində müəyyən siyasi fəaliyyət ilə çıxış edən mütəşəkkil və ya ciddi təşkil olunmamış insanlar qrupudur.

J.Beşler qeyd edir ki, "vətəndaşlar ümumi rifahın izah olun-

masını və bu izahı fəaliyyət proqramına çevirməyi onlara həvalə etdiyindən..., partiyalar demokratiya üçün olduqca vacibdir" (13). Məhz siyasi partiyalar bu və ya digər sosial təbəqələrin və vətəndaş qruplarının tələblərini onların maraqları və məqsədləri əsasında ifadə edir. Siyasi partiyalar – vətəndaş cəmiyyəti ilə dövlət arasında vasitəçi kimi çıxış edirlər.

Dövlətlə vətəndaş cəmiyyəti arasında münasibətlər sistemində partiya, institut olaraq, ya dövlətə, ya da vətəndaş cəmiyyətinə mənsub olmalıdır. Müvafiq olaraq, iki əks partiya modeli mümkündür: dövlət partiyaları və vətəndaş partiyaları. Birinci totalitar, ikinci isə demokratik rejim üçün xarakterikdir. Demokratik rejimdə siyasi partiyalar hakimiyyət və siyasi nüfuz uğrunda qanuni parlament metodları ilə mübarizə aparır. Hakimiyyətdə olan partiya digər ictimai birliklərə qarşı məcburedici metodlar tətbiq etmir, müxalifətə bütün demokratik hüquq və azadlıqlardan maneəsiz olaraq faydalanmaq imkanı verir. Öz növbəsində, müxalifət partiyaları hakimiyyət uğrunda mübarizədə ekstremist metodlardan çəkinir və seçicilərin iradəsinə tabe olur.

«Elan edilmiş hüquqlardan real istifadə etmək imkanının şərtləri və səviyyəsi, insanın ictimai və dövlət həyatında həqiqi vəziyyətini göstərir, müəyyən siyasi sistemin nə dərəcədə demokratik olduğunu, konkret fərdin siyasi prosesdə iştirak etmək imkanını və bu imkanın hüdudlarını müəyyən edir» fikri ilə razılaşmamaq mümkün deyildir (14).

Əsas hüquq və azadlıqların siyahısına sosial-iqtisadi, siyasi və şəxsi hüquq və azadlıqlar daxildir. Bununla belə beynəlxalq hüquqda ən mühüm olaraq siyasi hüquq və azadlıqlar tanınır. Şəxsiyyətin siyasi hüquq və azadlıqları onun cəmiyyətin siyasi həyatında iştirak etmək hüququ kimi müəyyən edilə bilər. Vətəndaş və siyasi hüquqlar haqqında 16 dekabr 1966-cı il tarixli Beynəlxalq paktda təsbit olunmuş mühüm siyasi hüquq və azadlıqlara fikir, vicdan və din azadlığı, öz fikirlərinə məaneəsiz sadiq qalma, fikirlərini sərbəst ifadə etmək, sərbəst toplaşmaq azadlığı, digərləri ilə azad əməkdaşlıq, o cümlədən öz maraqlarını müdafiə etmək məqsədilə həmkarlar ittifaqları yaratmaq və onlara üzv olmaq hüququ və s. daxildir.

Siyasi hüquq və azadlıqların əsasında duran nemətlərin növündən asılı olaraq siyasi hüquq və azadlıqları aşağıdakı kateqoriyalar üzrə təsnif etmək olar:

1) şəxsin dövlətə mənsubluğu ilə bağlı hüquqlar - vətəndaşlıq münasibətləri və sığınacaq verilməsi;

2) vətəndaşların qanun qarşısında bərabərliyi prinsipi ilə bağlı hüquq və qanuni maraqlar;

3) xalq hakimiyyətinin təmin olunması, cəmiyyətin və dövlətin işlərinin idarə olunması ilə bağlı hüquqlar.

Qeyd etmək lazımdır ki, müasir dövrdə siyasi hüquq və azadlıqların qəbul edilmiş beynəlxalq standartlar səviyyəsində reallaşdırılmasının təmin edilməsi vacibdir. Bu məqsədlə mövcud qanunvericiliyi vətəndaşların siyasi hüquq və azadlıqları haqqında

beynəlxalq sənədlərin normalarına uyğunlaşdırmaq; vətəndaşların hüquqi cəhətdən bəyan edilmiş hüquq və azadlıqlarının reallaşmasının maddi və maliyyə imkanlarını təmin etmək; vətəndaşların siyasi hüquq və azadlıqlarının daha dolğun təmin edilməsi və onların pozulması halında etibarlı müdafiəsi üçün təsirli hüquqi mexanizmlər və prosedurlar yaratmaq lazımdır.

Demokratiya dövlət orqanlarının, partiya və digər ictimai birliklərin fəailiyyətində aşkarlıq və şəffaflığı nəzərdə tutur. Bununla belə, hər şeydən əvvəl, KİV və ictimaiyyətin hakimiyyətin ali orqanlarının fəailiyyəti ilə bağlı informasiyanı maneəsiz əldə etmək imkanı təmin edilir. Aşkarlığın təmin olunmasında ən əsas rolu hakimiyyətin senzurasından azad olan və qanuni əsasda hakimiyyəti tənqid etmək imkanı olan kütləvi informasiya vasitələri oynayır. Vətəndaşlar alternativ informasiya mənbələrinə müraciət etmək hüququna malikdirlər. Bundan əlavə alternativ informasiya mənbələri mövcuddur və qanunla qorunur.

Demokratik rejim şəraitində dövlətin hakimiyyət orqanlarının fəailiyyətində icbari, qətimkan tədbiri metodları azaldılır, qeyri-hüquqi hakimiyyət metodları istisna olunur, kompromis, mövqelər üzrə qarşılıqlı razılaşma metodlarına, meydana çıxmış münaqişələri sülh yolu ilə həll etmək cəhdlərinə üstünlük verilir. Ordu, xüsusi xidmət orqanları xarici və daxili təhlükəsizliyi təmin edir, onların fəailiyyəti qanunla tənzim olunur, asayişin qorunması funksiyasını polis və məhkəmələr təmin edir.

Demokratizmin vacib göstəricilərindən biri cəmiyyətin əsas qrup və təbəqələrində siyasi mədəniyyətin formalaşmasıdır. Siyasi mədəniyyət:

1) əhalinin dəyərləri iyerarxiya strukturunda demokratiyanın yüksək mövqeyi;

2) həyatın demokratik prinsip və normalar üzərində möhkəm qurulması;

3) cəmiyyətdə demokratik təcrübə və demokratik ənənələrin mövcudluğu mənasını verir.

Beləliklə də, siyasi və hüquqi dəyər və dünyagörüşü idealı olan demokratiya vətəndaşların siyasi düşüncəsinin ayrılmaz elementinə çevrilərək cəmiyyətdə xüsusi yer tutur. Demokratik rejim iki tərəfin: subyektiv və obyektiv tərəflərin vəhdətidir. Demokratiya yalnız demokratik institutların, təşkilati strukturların yaradılması və inkişafından ibarət olmayıb, siyasi düşüncənin, mədəniyyətin inkişafını nəzərdə tutur. Demokratiyanın obyektiv tərəfinə mövcudluğun maddi şərtləri, dövlət və ictimai institutlar, qanunilik və asayiş, vətəndaşların hüquq və vəzifələri, bu hüquq və vəzifələrin təminatı, demokratiyanın mümkünlüyü, yəni ondan istifadə olunması daxildir. Demokratiyanın subyektiv tərəfi – ən əvvəl demokratiyanın mahiyyəti və məqsədi, vətəndaş və ictimai birliklərin hüquqları, azadlıqları və vəzifələri haqqında düzgün təsəvvür yaradılmasını nəzərdə tutan siyasi düşüncə, siyasi mədəniyyət, demokratik institut və prinsiplərdən fəal istifadənin

vacibliyinə inamdan ibarətdir.


## ƏDƏBİYYAT

1. Ковлер А.И., Смирнов В.В. Демократия и участие в политике: краткие очерки истории и теории. М., 1986, с.192.
2. Философская энциклопедия. М., 1960, Т.1, с.456.
3. Большая Советская Энциклопедия. 3-е издание. М.,1972, т.8, с.80.
4. Демократия в Западной Европе XX века / Отв. ред. М.И. Наринский. М., 1996, с.3.
5. Хэллоуэлл Д. Моральные основы демократии. М.,1993, с. 54.
6. Лово Ф. Ведущие современные демократии. М., 1992, с.10.
7. Четвернин В.А. Демократическое конституционное государство: введение в историю. М., 1993, с.141.
8. Алексеева Т.А. Демократия как идея и процесс // Вопросы философии,1996, № 6, с.16.
9. Макаренко В.П. Политическая философия. Ростов-на-Дону, 1992, с.150.
10. Словарь-справочник по обществоведению и основам советского государства и права. М., 1990, с.168.
11. Байтин М.И., Демидов А.И., Матузов Н.И. Теория политики. Саратов, 1994, с.143.
12. Байтин М.И., Демидов А.И., Матузов Н.И. Там же, с.143-144.
13. Бешлер Ж. Демократия. М., 1994, с.117-118.
14. Ильинский И.Л., Мишин Д.А., Энтин Л.М. Политическая система современного капитализма. М., 1983, с.158-159.


## ОСОБЕННОСТИ ДЕМОКРАТИЧЕСКОГО РЕЖИМА


**М.Р.ГУЛИЕВ**



### РЕЗЮМЕ

В статье в первую очередь анализируются представленные в правовой литературе важнейшие положения четырех (плюрализм, демократический элитизм, неоэлитизм, леворадикальная концепция) основных концепций демократического режима. Далее доказывается, что важнейшей чертой демократического режима являются свободные и периодические выборы. Кроме того, отмечается, что одним из необходимых показателей демократизма является формирование высокой политической культуры в обществе.